*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №2* ISSN: 2664-5432
*Səhifə: 166-170*
https://doi.org/10.59849/2664-5432.2025.2.166

**Şahanə ƏSGƏROVA***

# UŞAQ NİTQİNİN İNKİŞAFINDA PSİXOLİNQVİSTİK MƏSƏLƏLƏR

**XÜLASƏ**

Uşaq nitqinin formalaşma və inkişaf prosesinə psixolinqvistik aspektdən yanaşma, həmçinin nitq prosesi zamanı yaranan linqvistik məsələlər məqalənin əsas tədqiqat obyektidir. Uşaqlarda nitq qabiliyyətinin yaranması, dil, idrak və psixoloji mexanizmlərin qarşılıqlı təsiri nəticəsində baş verir. Tədqiqatda uşaq nitqinin mərhələli inkişafı, psixolinqvistik amillərin təsiri təhlil olunur. Məqalənin məqsədi uşaqlarda nitq inkişafının psixolinqvistik əsaslarını müəyyənləşdirmək və bu prosesdə mühüm rol oynayan faktorları sistemləşdirməkdir.

**Açar sözlər**: *psixolinqvistika, uşaq nitqi, dilin mənimsənilməsi, idrak, kommunikasiya.*

Nitq insanın sosial və intellektual inkişafının əsas göstəricilərindən biridir. Uşaqlarda nitqin formalaşması yalnız dil vahidlərinin mənimsənilməsi deyil, həm də idrak proseslərinin inkişafı ilə sıx bağlı olan mürəkkəb psixolinqvistik hadisədir. Uşaqların nitq fəaliyyətinin düzgün istiqamətdə formalaşması onların düşüncə tərzinin, ünsiyyət bacarığının və emosional davranışının əsasını təşkil edir.

Psixolinqvistika elmi insanın nitq fəaliyyətinin yaranması, qavranılması və ifadə olunması proseslərini psixoloji və dilçilik baxımından öyrənir. Bu elm sahəsi uşaqlarda dilin mənimsənilməsi mexanizmini, nitqin formalaşmasında psixoloji amillərin rolunu və ünsiyyət prosesində idrak fəaliyyətinin iştirakını izah edir. Müasir dövrdə uşaqlarda nitq inkişafı məsələsi təkcə pedaqoji baxımdan deyil, həm də psixolinqvistik kontekstdə geniş tədqiq olunur. Təlim və tərbiyə prosesində düzgün dil mühiti yaratmaq, uşağın emosional və sosial inkişafına uyğun nitq mühiti formalaşdırmaq bu araşdırmaların əsas məqsədlərindən biridir.

**Psixolinqvistikanın mahiyyəti və uşaq nitqinin tədqiqində rolu**. Psixolinqvistika dil və düşüncə, dil və psixika arasında qarşılıqlı əlaqəni öyrənən elm sahəsidir. Bu istiqamətin formalaşmasında L.S.Vıqotski, A.A.Leontyev, İ.Xarlaeva, R.Farlayev kimi alimlərin tədqiqatları mühüm əhəmiyyət daşıyır. Onlar dilin mənimsənilməsini sadəcə imitasiya və mexaniki öyrənmə kimi deyil, uşağın idrak inkişafı ilə paralel gedən yaradıcılıq prosesi kimi izah edirlər. Vıqotskiyə görə, nitq və düşüncə bir-biri ilə qarşılıqlı şəkildə formalaşır: uşaq əvvəlcə sosial mühitdə ünsiyyət vasitəsi kimi dili mənimsəyir, daha sonra onu daxili nitq səviyyəsində

*AMEA Nəsimi adına Dilçilik İnstitutu Sosiolinqvistika və Psixolinqvistika şöbəsinin kiçik elmi işçisi. Email: shahanatakishiyeva@gmail.com

düşüncəyə çevirir. Bu baxımdan, dilin mənimsənilməsi həm sosial, həm də fərdi idrak prosesidir.

Psixolinqvistik yanaşmaya əsasən, uşaq nitqinin inkişafı zamanı beyində dil vahidlərinin kodlaşdırılması və dekodlaşdırılması prosesi gedir. Uşaq danışarkən ifadə etmək istədiyi mənanı dil formalarına çevirir, dinləyərkən isə əks proses-qavrama baş verir. Bu mexanizmlərin düzgün qurulması nitq fəaliyyətinin formalaşmasında əsas şərtdir.

**Uşaq nitqinin inkişaf mərhələləri və psixolinqvistik xüsusiyyətləri**. Uşaqların nitq xüsusiyyətləri əsasən uşağın böyüklərin nitqini təhlil etmək qabiliyyəti ilə müəyyən edilir, yəni qrammatik, leksik, fonetik baxımdan böyüklərin nitqindən xüsusi olaraq çıxara bildikləri nəticə ilə müəyyən edilir. Nitqin yarandığı ilkin mərhələdə hər uşaq böyüdüyü ailənin, mühitin şifahi nitq xüsusiyyətlərini mənimsəyir daha sonra onu bir növ yamsılayır. Uşaqlar arasında fərdi fərqlərdən, tərbiyə olunduqları nitq mühitindən, hətta başa düşdükləri dilin xüsusiyyətlərindən asılı olmayaraq, dil qaydalarının mənimsənilməsinin ümumi strategiyası hamı üçün eynidir. Uşaq nitqinin inkişafı mərhələli şəkildə baş verir və hər mərhələ özünəməxsus psixolinqvistik xüsusiyyətlərlə xarakterizə olunur:

**Səssiz mərhələ** (0–1 yaş): Həyatın ilkin mərhələsində bütün uşaqlar eyni qışqırır. Bu, uşağın cinsindən və öyrənəcəyi dilin xüsusiyyətlərindən asılı olmayan anadangəlmə reaksiyadır.Bu dövrdə uşaq səsləri qavrayır, fərqləndirir və emosional reaksiya verir. Nitqin formalaşması üçün əsas baza eşitmə və təqlid mexanizmləri yaranır. Təxminən iki ay ərzində uşaq aydın ifadəli səsləri inkişaf etdirməyə başlayır və ən əsası, özünün onlardan həzz aldığı nəzərə çarpır. Üç aya qədər uğultu adətən maksimum həddə çatır. Onun təbiəti və müddəti ananın reaksiyasından asılıdır. Uşağın çıxardığı səslərə müsbət reaksiya verərsə, gülümsəyir, onları təkrarlayırsa, zümzümə güclənir və daha çox emosional olur. Bunlar ana ilə uşaq arasındakı ilk dialoqlar, ilk ünsiyyət təcrübələridir. Danışıqdan əvvəl uşağın çıxardığı səslər yalnız şərti olaraq sait və samit sayıla bilər. Birincisi, dilin həqiqi səsləri linqvistik vahidlərin-sözlərin qabıqlarını təşkil edir və onları fərqləndirməyə xidmət edir. Burada heç bir sözdən danışmağa ehtiyac yoxdur, hətta xarici oxşarlıq (ma-ma və ya ba-ba, nə-nə kimi bir şey) olduğu hallarda belə, səs kompleksləri heç bir şəkildə məna ilə əlaqəli deyil. Əvvəlcə samit + sait birləşmələrinə bənzəyən qısa səslər edir, getdikcə daha çox yeni səs birləşmələri yaranır, uşaq əvvəlcə bir heca tələffüz edirsə, tezliklə üç, dörd və ya daha çox eyni hecadan.(ba-ba-ba, nə-nə-nə-nə) ibarət zəncirlər meydana çıxır. Heca zəncirləri getdikcə daha müxtəlif olur.

**Ləqəbi səslər və ilk sözlər mərhələsi (**1–2 yaş): Həyatın ikinci ilində körpənin səsləri artıq bir az fərqli xarakter daşıyır. Beyin bu mərhələdə fonetik və leksik kodlaşdırma sistemini qurur. Uşaq səs kombinasiyalarını müəyyən mənalarla əlaqələndirməyə başlayır.Uşağın hələ şifahi nitqlə danışmadığı bir vəziyyətdə kommunikativ niyyətlərini ifadə etmək ehtiyacı, üz ifadələri və jestlərlə yanaşı, vokalizasiyanın da müəyyən bir məna ifadə edən əlamətlər kimi çıxış etdiyini müəyyən-

ləşdirir. Səslərin mənasının uşaqla ünsiyyət quran bir yetkin üçün aydın olması üçün onların əlçatan olan müəyyən bir forması (mənası) olmalıdır. Valideynlər, adətən, tanış intonasiya strukturlarını tanıdıqları üçün uşağın preverbal səslərinin mənasını düzgün başa düşürlər. Səslərin mənasının tanınması nitqin konteksti və vəziyyəti ilə asanlaşdırılır. 1 yaşında uşaq iki hecadan ibarət sözlər(ana, ada(ata), mama, nənə, haya(xala), baba), (ay(almaq), vey(vermək)) bir sözdən ibarət cümlələr qura bilir. 2 yaşından başlayaraq davranışda,hərəkətlərdə, sərbəst anlama, baş verən hər şeyə mənfi və ya müsbət yanaşma(məsələn; 2 və 3 yaşında iki uşağın dialoqu zamanı 2 yaşında uşaq digərinə o:baz (olmaz) deyə cavab verir) kommunikativ yüksəliş özünü göstərir. Hər hansı bir davranışa münasibəti sözlə ifadə etmək kommunikativ inkişafın göstəricisidir.

**Sadə cümlələr mərhələsi** (2–3 yaş): Nitq strukturlaşmağa başlayır, uşaq qrammatik qaydaları təbii yolla mənimsəyir. Uşağın maraq dairəsi genişlənir, ətraf mühitlə daha çox maraqlanmağa başlayır, suallar verir. Uşaq nitqi 2-3 yaş dövründə sadə cümlələrin formalaşması mərhələsinə daxil olur və bu dövr uşağın sintaktik bacarıqlarının ilkin inkişafını göstərir. [Харлаева, И. А. 1998; Фарлаев, Р. 2014])

**Mürəkkəb nitq mərhələsi** (3 yaşdan yuxarı): Uşaq artıq dilin qrammatik sistemindən şüurlu şəkildə istifadə edir, nitqi düşüncə ilə sıx əlaqəyə girir. "Artıq uşaq məhsuldar monoloji nitq səviyyəsinə yüksəlir. Bu səviyyə onunla xarakterizə olunur ki, uşaq öz nitq və dil imkanlarından istifadə edərək fikrini, fakt və hadisələrə münasibətini ifadə edə bilir, qiymət verə bilir, öz niyyətlərinə uyğun olaraq fikirlərini qurur" [Мусави З. 2019, с 148].

Bu mərhələlərin hər birində uşağın nitq inkişafı onun yaddaşı, diqqəti, qavrayışı və motivasiyası ilə birbaşa əlaqəlidir. Psixolinqvistik baxımdan nitq formalaşması həm idrak, həm də emosional inkişafın göstəricisidir.

Uşaq nitqinin inkişafında, psixolinqvistik aspektdən formalaşmasında bir sıra daxili və xarici amillər mühüm rol oynayır;

**Qavrama və diqqət**: Nitqin düzgün qavranılması üçün uşaq səs, söz və cümlə arasındakı əlaqələri fərqləndirməyi bacarmalıdır. Qavrama prosesi dilin mənimsənilməsi üçün ilkin mərhələdir.

**Yaddaş və Motivasiya:** Söz ehtiyatının və qrammatik modellərin beynin uzunmüddətli yaddaşında saxlanması nitqin avtomatlaşdırılmasına şərait yaradır, həmçinin, uşağın danışmağa marağı, ünsiyyət ehtiyacı nitqin təbii inkişafına təkan verir.

**Emosional mühit və sosial faktorlar:** Ailədə və tədris mühitində emosional təhlükəsizlik uşağın nitq aktivliyini artırır. Valideyn-uşaq və müəllim-uşaq münasibətləri nitq mədəniyyətinin formalaşmasında həlledici rol oynayır. Valideynlərin uşağa yanaşma tərzi, emosional münasibəti, nitqin inkişaf prosesində mühüm rol oynayır. Valideynlə uşaq arasında müsbət emosional bağ olduqda uşaq özünə güvənli böyüyür, əks təqdirdə isə nitqin passivləşməsinə səbəb olur. Məktəb və bağça mühitində müəllim uşağın sosial nitqinin, qarşılıqlı ünsiyyət bacarığının və kommunikativ davranışının formalaşmasına təsir göstərir.

Bu amillərin hər biri uşağın dil strukturunu mənimsəmə sürətinə və keyfiyyətinə təsir edir. Psixolinqvistik baxımdan nitq inkişafı dil öyrənmənin yalnız texniki tərəfi deyil, həm də emosional-idraki prosesdir.

Uşaq nitqinin inkişafında müşahidə olunan ləngimələr və pozuntular çox vaxt psixolinqvistik səbəblərlə əlaqəlidir.

Dil vahidlərinin beyində kodlaşdırılması prosesi ləngiyir, nəticədə uşağın söz ehtiyatı məhdud olur və bu zaman nitq gecikməsi baş verir. Nitq gecikməsi uşağa həm sosial, həm də psixoloji cəhətdən mənfi təsir edir.

Uşağın artikulyasiya aparatının inkişafında zəiflik və ya səslərin differensial qavranılmaması fonetik və fonoloji pozuntulara gətirib çıxarır.

Qrammatik qaydaların şüursuz mənimsənilməsi nəticəsində nitqdə sintaktik uyğunsuzluqlar yaranır və qrammatik səhvlərə yol açır.

Uşaq eyni vaxtda bir neçə dil sistemini qavramağa çalışdıqda iki və çoxdillilikdən irəli gələn çətinliklərlə qarşılaşır və bu nitq inkişafını ləngidir.

Texnologiyanın mənfi təsirləri, televiziya və mobil cihazların həddindən artıq istifadəsi ünsiyyət bacarığını zəiflədir, passiv nitqin üstünlük təşkil etməsinə səbəb olur.

Bu problemlərin aradan qaldırılması üçün psixolinqvistik təhlil əsasında fərdi yanaşma, nitq terapiyası və dil stimullaşdırma üsulları tətbiq edilməlidir.

Uşaq nitqinin inkişafı çoxşaxəli və mərhələli bir prosesdir. Psixolinqvistik yanaşma göstərir ki, dilin mənimsənilməsi uşağın düşüncə, yaddaş, diqqət və emosional vəziyyəti ilə sıx bağlıdır. Nitqin düzgün formalaşması üçün uşağa dil baxımından zəngin və emosional mühitin yaradılması vacibdir. Məqalənin nəticələri göstərir ki, nitq inkişafına təsir edən psixolinqvistik amillərin sistemli şəkildə tədqiqi uşaqlarda nitq pozuntularının erkən aşkarlanmasına, onların aradan qaldırılmasına və kommunikativ bacarıqların inkişafına şərait yaradır.

## ƏDƏBİYYAT:


1. Стелла Наумовна, Цейтлин. Язык и ребенок. Освоение ребенком родного языка, Moskva, ВЛАДОС. 2021, 240 s.
2. Мусави, З. Психолингвистика, Освоение детьми иностранных языков, Баку, Издательство AVROPA, 2019, 226 с.
3. Выготский, Л. С. Мышление и речь. Москва, Педагогика. 1982, 352 с.
4. Леонтьев, А.А. Психолингвистика, основы теории речевой деятельности. Москва, Наука. 1974, 368 с.
5. Харлаева, И.А. Развитие детской речи на психолингвистической основе. Москва, Академия. 1998, 212 с.
6. Фарлаев, Р. Психолингвистические основы детской речи. Баку, Издательство АДПУ. 2014,184 с.

## PSYCHOLINGUISTIC ISSUES IN THE DEVELOPMENT OF CHILDREN'S SPEECH

### SUMMARY

The main object of the research in the article is the psycholinguistic approach to the process of formation and development of children's speech, as well as linguistic problems that arise during the speech process. The emergence of speech ability in children occurs as a result of the interaction of language, cognition, and psychological mechanisms. The study analyzes the stages of speech development in children and the influence of psycholinguistic factors. The aim of the article is to identify the psycholinguistic foundations of speech development in children and to systematize the factors that play an important role in this process.

**Keywords:** *psycholinguistics, child speech, language acquisition, cognition, communication.*

## ПСИХОЛИНГВИСТИЧЕСКИЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ РЕЧИ ДЕТЕЙ

### РЕЗЮМЕ

Основным объектом исследования статьи является психолингвистический подход к процессу формирования и развития речи детей, а также лингвистические проблемы, возникающие в ходе речевого процесса. Формирование речевой способности у детей происходит в результате взаимодействия языка, познавательных и психологических механизмов. В исследовании анализируется этапность развития речи детей и влияние психолингвистических факторов. Цель статьи – выявить психолингвистические основы развития речи у детей и систематизировать факторы, играющие важную роль в этом процессе.

**Ключевые слова:** *психолингвистика, детская речь, усвоение языка, познание, коммуникация.*